BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2010

# İRAN-BƏHREYN MÜNASİBƏTLƏRİNİN ƏSAS CƏHƏTLƏRİ

**A.A.MƏMMƏDLİ**
***Bakı Dövlət Universiteti***
***atamoglan@mail.ru***

*Məqalədə İranda baş vermiş İslam inqilabına Bəhreynin münasibəti, Bəhreyndə iranpərəst qüvvələrin hökumət əleyhinə çıxışları, İslam inqilabı ideyalarının Bəhreynə ixracı cədləri, Bəhreyn hökumətinin Səudiyyə Ərəbistanı və ABŞ ilə yaxınlaşması, 90-cı illərdə Bəhreyn ilə İran arasında yaranmış gərgin vəziyyət və Suriyanın vasitəçiliyi ilə iki ölkə arasında yaxşılığa doğru irəliləyişin baş verməsindən bəhs olunur və onların arasındakı problemlər qeyd edilir.*

1978-1979-cu illər İslam inqilabının qələbəsindən sonra Tehranda hakimiyyətə gəlmiş yeni iqtidar əvvəlki dövrə nisbətən xarici siyasət xəttində əsaslı dəyişikliklər etdi. İranda baş vermiş islam inqilabı digər ölkələrdə olduğu kimi Bəhreyndə də birmənalı qarşılanmadı. Belə ki, İranda islami hakimiyyətin yaranması Bəhreyn əhalisinin 70 faizini təşkil edən 300 minlik şiə icması tərəfindən sevinclə qarşılandı (1). Onlar İranda baş vermiş hadisələrə böyük ümidlə baxır və belə güman edirdilər ki, Tehran rəhbərliyi Bəhreyn sakinlərinin əksəriyyətinin, yəni şiə icmasının hüquqi, siyasi və başlıca iqtisadi vəziyyətinin yaxşılaşması istiqamətində mühüm addımlar atacaqdır.

Qeyd etmək lazımdır ki, İranda İslam inqilabından az sonra dini rəhbər ayətulla Xomeyninin atdığı bəzi addımlar iki ölkə arasında gərginliyi daha da artırdı və qarşılıqlı etimadsızlığı gücləndirdi. Xomeyni islami təbliğatı gücləndirmək məqsədilə özünün şəxsi nümayəndəsini xüsusi missiya ilə Bəhreynə göndərdi. Nəticədə 1979-cu ilin payızında Bəhreyndə hökumət əleyhinə çıxış təşkil olundu. Bu çıxış ölkədə hakimiyyətdə olan sünni rəhbərliyinin devrilməsinə və «qanuni» şiə idarəçiliyinin qurulmasına yönəldilmişdi. Belə bir şəraitdə Bəhreyn hakimiyyət orqanları yardım xahişi ilə Səudiyyə Ərəbistanı Krallığına müraciət etdilər. Ər-Riyad bu müraciətə dərhal cavab verdi və oraya öz qoşununu göndərməklə yanaşı bildirdi ki, Səudiyyə Ərəbistanının silahlı qüvvələri–Bəhreynin silahlı qüvvələri deməkdir (2).

Daxili və xarici amillərin təsiri altında 80-ci illərin əvvəllərində Bəhreyndə daxili siyasi vəziyyət özünün gərginliyi ilə xarakterizə olunurdu. Xarici qüvvələrin dəstəyinə bel bağlayan bəzi qüvvələr hökumət əleyhinə fəaliyyətlərini daha da gücləndirmişdilər. Nəticədə 1981-ci ilin dekabrında Bəhreyndə Şeyx Əl-Xəlifənin sünni hökumətinin devrilməsinə cəhd edildi. Lakin bu cəhd uğursuzluqla bitdi. Hökumət orqanları 45 nəfər yerli sakini və digər ölkələrdən olan 15 ərəbin həbs olunduğunu və onların İranda təlim keçdiklərini bildirdilər. Bəyanatda qəsdçilərin ada hökumətini devirərək Bəhreyndə İran tipli İslam respublikası elan etməyi planlaşdırdıqları fikri öz əksini tapmışdı. Bəhreynin baş naziri Şeyx Əl-

Xəlifə Parisdə çıxan «Əl-Müstəqbal» jurnalına verdiyi müsahibəsində bildirdi ki, «İrandakı rejim Bəhreyn və Fars körfəzindəki şiə müsəlmanlarından istifadə edir, onlara silahla davranmağı öyrədir və sonra onları geriyə, öz vətənlərinə göndərirlər ki, qayda-qanunları pozsunlar və xaos yaratsınlar» (3).

Bəhreyn hökuməti bununla əlaqədar olaraq İİR-ə münasibətdə bəzi addımlar atdı. Bu hadisələrdən dərhal sonra Şeyx Əl-Xəlifə İran ilə ticarət üzərinə qadağa qoyulması çağırışı ilə bütün ərəb dövlətlərinə müraciət etdi. O, əlavə etmişdi ki, strateji cəhətdən bu təhlükəni dəf etmək üçün bizim əməkdaşlığımız zəruridir. Qeyd etmək lazımdır ki, Şeyx Əl-Xəlifənin bu çağırışı cavabsız qalmadı. 1981-ci ilin dekabrında dövlət çevrilişinə cəhd iflasa uğradıqdan bir neçə gün sonra Səudiyyə Ərəbistanı Krallığı ilə Bəhreyn hökumətləri arasında qarşılıqlı təhlükəsizlik haqqında pakt imzalandı. Onlar körfəzin digər dövlətlərini də bu pakta qoşulmağa çağırdılar.

1981-ci ilin dekabrında (Fars Körfəzi Ərəb Dövlətlərinin əməkdaşlıq təşkilatı) FKƏDƏŞ-na üzv dövlətlərin xarici işlər nazirləri və qərargah rəislərinin görüşlərində təhlükəsizlik problemi ilk dəfə olaraq açıq müzakirə olundu. Bəhreyndə dövlət çevrilişi cəhdi boşa çıxdıqdan sonra əlaqələndirilmiş müdafiə siyasətinin işlənilib hazırlanmasının zəruriliyi haqqında bəyanat verildi (2). Maraqlıdır ki, bu bəyanat İran tərəfindən açıq müdafiə olundu. Çox güman ki, bu, Tehranın böyük dövlətlərin körfəz ölkələrinin müdafiəsi bəhanəsi altında regionun daxili və xarici həyatında iştirakının güclənməsindən ciddi narahat olmasından irəli gəlirdi.

İran hökuməti verdiyi bəyanatda Bəhreyndə baş vermiş dövlət çevrilişinə özünün aidiyyatı olmadığını bildirsə də, Tehran mətbuatına görə ölkə rəhbərliyi islam inqilabının ixracına 1981-1982-ci illərdə 18 milyard dollar xərcləmişdi. Digər tərəfdən, ayətulla Xomeyni dəfələrlə özünün çıxışlarında sünnilərin hakimiyyətdə olduğu ölkələrdə yaşayan müsəlman şiələri qiyama çağırmışdı. Ərəb ölkələrinə veriliş yayımlayan Tehran radiosu da bu cür çağırışlarla daima şiə əhalisinə müraciət etmişdi. Məhz bu amilin nəticəsində Tehrana münasibətdə Bəhreyndə etimadsızlıq ab-havası hökm sürürdü.

Bəzi ərəb müəlliflərinin fikrincə, İran tərəfi ərəb ölkələrindəki şiə əhalisindən özünün «beşinci dəstəsi» kimi istifadə etməyə çalışırdı. Bununla belə, ərəb tədqiqatçısı Nuri Əl-Kasimi təsdiq edirdi ki, Tehran iranlıların Bəhreynə köçürülməsinə şüurlu surətdə kömək edirdi ki, ekspansiya üçün plasdarmı genişləndirsin. Əslində bu körfəz dövlətinin narahatlığı əsassız deyildi. Belə ki, ayətulla Xomeyni tərəfindən İrandan xaricdə yaşayan bütün şiə icmalarının başçısı təyin edilmiş ayətulla Ruhaninin bəyanatında Tehranın ekspansionist əhval-ruhiyyəsi olduqca açıq təzahür edirdi. O, elan etmişdi ki, Bəhreyndə hökumətin devrilməsinə şəxsən rəhbərlik edəcək və bu arxipelaqı İİR-nın tərkibinə daxil edəcəkdir (4).

Bütün bu hadisələr təbii olaraq İranın istəklərinin ziddinə olaraq Bəhreyni Səudiyyə Ərəbistanı Krallığı və ABŞ ilə əməkdaşlığa daha çox sövq edirdi. İran təhlükəsindən ehtiyat edən Bəhreyn 1981-ci ilin mayında FKƏDƏŞ-na daxil oldu. Əməkdaşlıq Şurasının xətti üzrə Bəhreyn ilə Səudiyyə Ərəbistanı arasında 25 km uzunluğunda körpünün tikintisinə başlanıldı. Ümumi dəyəri 1,2 milyard dollar təşkil edən bu körpünün tikintisi 1987-ci ildə başa çatdırıldı. Bu, ada dövlətinin hərbi vəziyyətini əhəmiyyətli dərəcədə möhkəmləndirdi. Çünki Bəhreyn həmişə, xüsusilə də İraq-İran müharibəsinin başlanması ilə əlaqədar

olaraq ehtiyat edirdi ki, İran öz qoşunlarını Bəhreyn ərazisinə çıxararaq onu ələ keçirə bilər.

ABŞ ilə əməkdaşlıq isə Amerika hərbi dəniz qüvvələrinə Bəhreynin dəniz limanlarına daxil olmaq imkanlarının verilməsi haqqında razılıq əldə olunmasına gətirib çıxardı. ABŞ gəmiləri üçün hətta xüsusi dayanacaq ayrıldı. Bu «imkanlara» görə ABŞ hər il Bəhreynə 2 milyon dollara qədər yardım verirdi. Bunlardan başqa, Bəhreyn 1988-ci ildə 300 milyon dollar dəyərində Amerika silahı aldı. Eyni zamanda, həm İran İslam inqilabının ixracı təhlükəsi və həm də İraq-İran müharibəsinin doğurduğu qorxu ilə əlaqədar olaraq FKƏDƏŞ-ı Bəhreynin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra addımlar atdı. Əməkdaşlıq Şurası 1982-ci ildə Bəhreynin müdafiə ehtiyaclarına 1,3 milyard dollar vəsait ayırdı (5). Bu vəsait ölkənin hava hücumundan müdafiə sisteminin təkmilləşdirilməsi üçün nəzərdə tutulmuşdu. Bu işdə həlledici rol isə Amerika hərbi mütəxəssislərinə verilirdi.

İraq-İran müharibəsi zamanı Bağdadı müdafiə edən Manama həmçinin 1988-ci ilin iyulunda BMT TŞ-nın 598 saylı qətnaməsinin Tehran tərəfindən qəbul edilməsini alqışladı və bunu «realizm və müdrikliyin» təzahürü adlandırdı. Manamada belə bir əminlik ifadə olundu ki, İran rejiminin yeni siyasəti «əvvəlki anlaşılmazlığa» son qoyacaq və iki qonşu dövlətin münasibətlərində yeni səhifə açacaqdır» (2).

Digər tərəfdən, bu dövrdə Livanda yaranmış gərgin vəziyyət ilə əlaqədar olaraq Qərbi Asiyada meydana çıxan yeni maliyyə mərkəzi kimi Bəhreynin böyük əhəmiyyət kəsb etdiyini İranda yaxşı başa düşürdülər. İİR rəhbərləri ümid edirdilər ki, ağır vəziyyətdə olan İran iqtisadiyyatının, xüsusilə müharibə gedişində zərər çəkmiş neft sənayesinin bərpası üçün Tehrana maliyyə-iqtisadi yardım göstərilərkən Bəhreyn bankları kənarda qalmayacaqdır.

Ancaq 90-cı illərin əvvəllərində İran ilə Bəhreyn arasındakı münasibətlərdə ciddi çətinliklər yarandı. Bu zaman Manama və digər şəhərlərdə iğtişaşlar baş verdi. Bu iğtişaşların təşkilində İran yenə təqsirli bilindi. Ərəb mətbuatının yazdığına görə, İranın xüsusi xidmət orqanları Bəhreyndə yerli şiələrin müxtəlif təşkilatlarını adanın sünni hakimləri əleyhinə çıxışlara təhrik edirdilər. Bu, körfəzdə vəziyyəti ciddi surətdə mürəkkəbləşdirdi. Bütün sahilboyu ölkələrdə Bəhreynin müdafiəsi uğrunda və İİR-nın pozuculuq fəaliyyəti əleyhinə çıxışlar etdilər. Körfəzdə sülh və təhlükəsizlik prosesi təhlükə altına düşdü.

90-cı illərin ortalarında Bəhreyn hökuməti təhlükəsizlik mülahizələrindən çıxış edərək ABŞ ilə hərbi-texniki əməkdaşlığını daha da fəallaşdırdı. Bu isə, ilk növbədə qonşu İranı daha çox narahat edirdi. Vaşinqton 1995-ci ilin dekabrında Fars körfəzindəki hərbi dəniz qruplaşmasının təhlükəsizliyini təmin etmək məqsədilə müvəqqəti olaraq öz hərbi təyyarələrini Bəhreyn ərazisində yerləşdirmək üçün yerli hökumətdən icazə istədi. Buna müsbət cavab alan ABŞ 1996-cı ilin martında oraya müasir freqat və hava hücumundan müdafiə raket qurğusu göndərilməsinə dair sövdələşmə bağladı. Bu zaman Pentaqon Bəhreynin maraqlarını da nəzərə aldı. Üç aydan sonra Manamada guya İranın aidiyyəti olduğu hökumət əleyhinə sui-qəsdin üstünün açıldığı elan olundu (6). Belə bir şəraitdə prezident Klinton Bəhreyn əmirini əmin etdi ki, Vaşinqton Manama hökumətini, onun suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini hərtərəfli müdafiə edəcəkdir. Bəhreyn hökuməti 1998-ci ilin martında ölkədə Amerikanın hərbi

iştirakının davam etməsinə razı oldu, apreldə isə ABŞ bu adadakı hərbi kontingentini daha da gücləndirdi və onun zərbə qüvvələrini artırdı (5).

1994-cü il dekabrın ortalarında Bəhreyndə iğtişaşlar yenidən alovlandı. Küveyt mətbuatının məlumatına görə bu iğtişaşları İranın himayə etdiyi, «Bəhreynin azadlığı uğrunda İslam hərəkatı» şüarı altında çıxış edən «Hezbulla» təşkilatı təşkil etmişdi. Guya bu iğtişaşları törədənlər hökumət əleyhinə fəaliyyəti gücləndirmək üçün ölkəyə döyüş sursatı və partladıcı maddələr gətirmək niyyətində imişlər. İran tərəfi «Əs Siyasa» qəzetinin baş redaktoru Əhməd əl Cərullanın redaksiya məqaləsində Bəhreynə və Səudiyyə Ərəbistanına müdaxilə üçün «Hezbulla»dan «Troya atı» kimi istifadə etməkdə təqsirli bilindi. O, Tehranın hərəkətlərini «İraqın Küveytə qarşı təcavüzündən heç nə ilə fərqlənməyən açıq təcavüz» adlandırdı (6).

Manamada baş vermiş iğtişaşlar üç həftə davam etdi. Hökumət qüvvələri min nəfərə yaxın nümayişçini həbs etdi, iki nəfər öldürüldü, onlarca adam yaralandı. Qeyd edək ki, Manamada hökumət əleyhinə çıxışlar dini moizəçi A.Salmanın həbs edilməsindən və işgəncələr nəticəsində onun ölümündən sonra başlanmışdı. Salman öz moizələrində vaxtilə Bəhreyn əmirinin fərmanı ilə 1975-ci ildə buraxılmış parlamentin fəaliyyətinin bərpa edilməsinə çağırırdı. Bundan başqa, nümayişçilər işsizliyin aradan qaldırılmasını və şiələrə «bütün nazirliklərdə və idarələrdə vəzifələr tutmaq hüququ» verilməsini tələb edirdilər.

Bu zaman İranın kütləvi informasiya vasitələri Bəhreyn əleyhinə ideoloji kampaniyanı görünməmiş dərəcədə genişləndirdi. Lakin Manamada iğtişaşlar yatırıldıqdan sonra İranda da mətbut səhifələrində Bəhreynin ünvanına söylənilən tənqidi fikirlər tədricən mülayim ifadələrlə əvəz olundu. Bir müddətdən sonra isə 1996-cı ilin əvvəllərində Suriyanın vasitəçiliyilə İran və Bəhreyn arasında ikitərəfli münasibətlərin normal hala salınması haqqında razılıq əldə edildi. Suriyanın xarici işlər naziri Faruk Şaraa Manamada verdiyi müsahibəsində qeyd etdi ki, tərəflər bir-birinə qarşı düşmənçilik təbliğatı kampaniyasını dayandırmaq, əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin bərpasına dair tədbirlər görmək haqqında razılıq əldə etmişlər (7). Qeyd etmək lazımdır ki, Suriyanın vasitəçilik səyləri bu ərəfədə ərəb dövlətləri başçılarının Qahirədə keçirilmiş müşavirəsinin qəbul etdiyi qətnamə çərçivəsində həyata keçirilmişdi.

Bu təşəbbüs nəticəsiz qalmadı və iki ölkə arasındakı münasibətlərdə yaxşılığa doğru irəliləyiş baş verdi. Belə bir şəraitdə, BMT Baş Məclisinin iclasları gedişində Suriyanın köməyi ilə Bəhreyn və İran xarici işlər nazirləri arasında görüş keçirildi. Tərəflər arasında bəzi qarşılıqlı anlaşmalar əldə olundu. Danışıqlar gedişində iki ölkə arasında münasibətlərin bütün cəhətlərinə toxunuldu. Əlavə edək ki, 1996-cı ilin iyununda Bəhreyndə baş vermiş sui-qəsdin üstü açılandan sonra İranın Manamadakı diplomatik nümayəndiliyi müvəqqəti işlər vəkili səviyyəsinədək endirilmişdi.

Belə bir şəraitdə 1997-ci ildə İİR-in xarici işlər naziri K.Xərrazi körfəzin bir sıra ölkələrinə səfər etdi. O, həmçinin Bəhreyndə oldu və İran-Bəhreyn münasibətlərinin nizama salınması üzrə bir sıra danışıqlar apardı. Xüsusilə iki ölkə arasında əlaqələrin normal hala salınması və səfirlər mübadiləsi haqqında saziş əldə olundu. Tehran bu razılaşmalar çərçivəsində bildirdi ki, gələcəkdə «Hezbulla-Bəhreyn» və buna bənzər digər müxalifətçi şiə təşkilatları ilə əlaqələrdən və onlara hər hansı yardım göstərməkdən imtina edəcəkdir (6). Manama Tehranın qəbul etdiyi bu qərardan razı qaldığını bildirdi və beləliklə, iki olkə arasındakı

münasibətlər tədricən normal məcraya düşməyə başladı. Bu isə nəinki Fars körfəzi zonasında, həmçinin bütövlükdə Yaxın və Orta Şərqdəki vəziyyətə müsbət təsir göstərdi.

İki ölkə arasında münasibətlərin yaxşılığa doğru inkişafı həm də 1997-ci ildə Məhəmməd Xatəminin İİR prezidenti seçilməsi və İranın xarici siyasətində qonşu ölkələrlə mübahisəli problemlərin həllinə mühüm yer verməsilə əlaqədar idi. Lakin qarşılıqlı münasibətlərdə müsbət cəhətlərlə yanaşı mənfi hallara da təsadüf olunurdu. Belə ki, Bəhreynin mənsubluğu məsələsi tarixən ən mübahisəli məsələlərdən biri sayılır. XV-XVI əsrlərdə tərkibinə indiki Qətərdən Bəhreynədək sahilboyu ərəb torpaqlarının daxil olduğu Hörmüz dövləti Azərbaycan Səfəvilər dövlətinin vassalı sayılırdı. Bəhreyn 1783-cü ilədək İrana məxsus olmuş, 1957-ci ilin noyabrında isə şah Bəhreyni İranın on dördüncü əyaləti elan etmişdi. İslam inqilabından sonra isə ayətulla Xomeyni rəsmən Bəhreyni İranın qədim torpaqları elan etdi. Ölkənin maliyyə və iqtisadiyyat naziri Ə.Bənisədr isə bildirdi ki, «Əbu-Dabi, Qatar, Oman, Dubay, Küveyt və Səudiyyə Ərəbistanı kimi ərəb dövlətləri İranın gözlərində müstəqil olmayan dövlətlər kimi təsəvvür olunur» (4).

Qeyd edək ki, İran yalnız 1997-ci ildə «Hizbulla-Bəhreyn» təşkilatını dəstəkləməkdən imtina etdikdən sonra Bəhreyn ilə münasibətlər normal hala salındı. Lakin bu hadisədən bir neçə il sonra İİR-in rəsmi şəxslərinin bəyanatlarında qeyd olunurdu ki, Bəhreyn Krallığına «suveren və müstəqil dövlət kimi baxmaq olmaz, ona görə ki, o, yenidən İranın tərkibinə daxil olmalıdır» (7).

Manamanın Xarici İşlər Nazirliyi bununla əlaqədar olaraq bu cür bəyanatlarla bağlı Tehrana etiraz notası göndərdi. Buna səbəb İran inqilabı rəhbərinin dəftərxanası nəzdində Təhqiqat komissiyasının sədri Nateq Nurinin bəyanatında «Bəhreynə həmişə İranın 14-cü əyaləti kimi baxılmışdır» ifadəsinin işlədilməsi Manamada ciddi narazılığa səbəb oldu. Bu bəyanat Bəhreyn kütləvi informasiya vasitələrində geniş müzakirə predmeti oldu (8). Orada qeyd olunurdu ki, bu cür bəyanatların qarşısının alınması üçün İran hakimiyyəti heç bir iş görmür. Lakin İran tərəfi belə bir əminliklə kifayətləndi ki, bu görüşlər rəsmi nöqteyi-nəzəri əks etdirmir.

İİR-in Manamadakı səfiri Bəhreyn Krallığının xarici işlər naziri ilə görüşündə onu əmin etmişdi ki, N. Nurinin verdiyi bəyanat heç cürə Bəhreynin suverenliyinə və müstəqilliyinə toxuna bilməz. İran səfiri əlavə etmişdi ki, İİR və Bəhreyn Krallığı arasındakı münasibətlər qarşılıqlı hörmətə əsaslanır və İİR-in rəsmi şəxsləri Bəhreynin suverenliyinin tapdalanmasına heç vəchlə imkan verməzlər (5) .

Bəhreyn tərəfi həmçinin İran parlamentində Elam əyalətini təmsil edən deputatlardan birinin də bu cür çıxışına narazılığını bildirdi. Bəhreynin xarici işlər naziri də bildirmişdi ki, bu cür bəyanatlar təxribat xarakteri daşıyır və iki qonşu dövlət arasında ikitərəfli münasibətlərin inkişafı maraqlarına xidmət etmir. İran və Bəhreyn arasında münasibətlərin kəskinləşməsi 2007-ci ildə də baş verdi. «Keyhan» qəzetinin baş redaktoru Hüseyn Şəriətmədari öz qəzetində dərc etdiyi məqalədə yazırdı ki, «Bəhreyn İrana məxsusdur». Bununla əlaqədar olaraq, FKƏDƏŞ-nın Baş katibi Əbdül Rəhman əl-Atiyya da İranın ünvanına tənqidlə çıxış etmişdi (9).

İran sadəcə olaraq beynəlxalq münasibətlərin köklü problemləri üzrə ondan fərqli mövqe tutan region ölkələrinə münasibətdə öz siyasətini kəskinləşdirir. Belə ki, Tehran müasir dünya qaydasını tənqid edir, İsrailin mövcudluğunu

tanımaqdan imtina edir, MAQATE-nin tələblərini yerinə yetirmir, regional təhlükəsizliyin təmin edilməsində ABŞ və Avropa dövlətlərinin iştirakı əleyhinə kəskin çıxış edir (10). İran tərəfindən İraqın daxili işlərinə qarışılması da bu ölkədə onsuz da ağır olan mürəkkəb daxili siyasi vəziyyəti dərinləşdirir və qonşu dövlətlərdə narazılıq doğurur. Bəhreynə münasibətdə İranın diplomatik tədbirlərinə onun ümumi xarici siyasət kursu kontekstində baxmaq zəruridir. Bəhreyn ilə ziddiyyətlər İİR siyasətinin təzahürlərindən yalnız biridir.

Digər tərəfdən, Tehranın Fars körfəzində hər hansı bir dövlət ilə münasibətinin normal hala salınması şübhəsiz ki, digər ərəb dövlətlərilə də onun əlaqələrinin daha da yaxşılaşmasına əlverişli imkan yaradır. Bu cəhətdən İİR-Bəhreyn münasibətlərinin yaxşı olması bütövlükdə Tehranın regional siyasətinə müsbət təsir göstərir və hər iki ölkənin maraqlarına cavab verir.

## ƏDƏBİYYAT


1. Бахрейн запретил наносить удары по Ирану со своей территории //http:// news.mail.ru/politics/31.05.2007.
2. Внешняя политика Бахрейна //http//tihobrage.ru//22.04.2010.
3. Рассмотрены вопросы развития отношений между Исламской Республика Иран и Бахрейном// http://news.iran.ru // 06.12.2002
4. Иранским судам запретили заходить в воды Бахрейна// http:new.mignews.com. 21.02.2008.
5. Ахмадинежад: Государства Персидского залива способны обеспечить безопасность//http://www.izbrannoe.ru. 17.11.2007.
6. Иран и арабские государства Персидского залива: новые тенденции в развитии отношений//http://dissertation 2.narod.ru./avtoreferats 6/w 14 htm/2006/.
7. Мелкумян Е.С. Реакция Бахрейна на новые иранские заявления//http:www.iimes.-ru/rus/stat/2009/16-02-09 a. htm.
8. В Тегеране началось четвертое заседание межправительственной комиссии Ирана и Бахрейна по сотрудничеству//http://4– 04.mysob.ru/news/politic/27.04.2004.
9. Газовое соглашение между Ираном и Бахрейном будет подписано до конца 2008 г. //http://nova.rambler.ru. 07.03.2008.
10. Бахрейн. Внешэкономсвязи, политика//http://polpred.com.2002.


## ОСНОВНЫЕ ОСОБЕННОСТИ ИРАНО-БАХРЕЙНСКИХ ОТНОШЕНИЙ


### А.А.МАММЕДЛИ


### РЕЗЮМЕ


В статье говорится об отношении Бахрейна к иранской исламской революции, об антиправительственном выступлении в Бахрейне проиранских сил, о попытках интеграции революционных идей в Бахрейн, о сближении бахрейнского правительства с Саудовской Аравией и США. Здесь также повествуется о тяжелых взаимоотношениях, сложившихся между Ираном и Бахрейном в 90-х годах и налаживании отношений при посредничестве Сирии. Были отмечены проблемы между ними.

**MAJOR PECULIARITES OF THE IRAN-BAHRAIN RELATIONS**

**A.A.MAMMADLY**

**SUMMARY**

The article deals with the attitude of Bahrain to Iranian Islamic revolution, antigovernmental performance of proiranian forces in Bahrain, attempts of integration of revolutionary ideas in Bahrain, as well as the approachment of the Bahrain government with Saudi Arabia and the USA. Hard mutual relations usual between Iran and Bahrain in the 90 s and adjustment of the relations at Syria's intermediary and problems between them are elucidated in the article as well.